ard

Sənət toplusu

# Qobustan





1 - 2012



# NOVRUZ




## Klassik şeirimizdə yaz, Novruz

### Məhəmməd FÜZULİ

#### Qəsidədən hissə

*Həva ərayişi-gülzarə oldu çöhrəgüşa,*
*Bahar gülşənə geydirdi hilleyi - xəzrə.*

*Çəmən əyalətinə oldu nəsb xüsrov – gül,*
*Həvayə əbrsifət hökmün etməyə icra.*

*Yazıldı səbzeyi - növxizdən xəti-əhkam,*
*Çəkildi saeyi-mətbui – sərvdən tuğra.*

*Səriri - abi - rəvanü səfiri-mürği-çəmən,*
*Nükati-təhnieyi-məqdəm etdilər inşa.*

*...Şəqayiq alnı zəminbusdən olub məcruh,*
*Bənəfşə qaməti[illegible]lu təvazö ilə düta.*

*Mürəttəl eylədi bir bəzm gülşən içrə bahar*
*Ki, verdi zövqi-tamaşası nəşəyi səhva...*

*

*Çatir, saqi, qədəh kim, bağü səhra laləzar oldu!*
*Əcəb fəsli-xücəstə, mövsümi - xoHruzigar oldu!*
*Şükufə bərgi torpaq üzrə siymin xiştlərdir kim,*
*Əsasi - eyşi - xəlq ol xiştlərdən üstüvar oldu.*
*Ciyər qani kimi getmişdi gözdən tazə gül həkli,*
*Enə dağı - dili - əhli - vəfa tək aşikar oldu.*
*Çıxardı səbzəvü gül xakdən çox ləli firuzə,*
*Bəli, yüz şükr kim, xan xaki - payinə nisar oldu.*
*Füzuli, gər xəzan vaxtı irərdin müttəqi hala,*
*Mey iç kim, mövsümü gül gəldi, əyyami - bahar oldu.*
*Açıldı qönçə tumarı və məlum oldu məzmuni,*
*Budur kim, fövt qılınan mövsümi - gül, cami - gülguni.*

#### Rübai

*Hərdəm ki, bahar qıldı arayişi-bağ,*
*Növmudlik urdu laləvəş bağrıma dağ.*
*Zira tikən üzrə tutdu bülbül məskən,*
*Gül bad güzərgəhində yandırdı çıraq.*

*

*Bu rəsmdir bürəhnə olub qışda hər dirəxt,*
*Təcdidi-kisvət eyləmək əyyami-növbahar.*

### Molla Pənah Vaqif

#### BAYRAM OLDU

*Bayram oldu, heç bilmirəm neyləyim,*
*Bizim evdə dolu çuval da yoxdur.*
*Düyüylə yağ hamı çoxdan tükənmiş*
*Ət heç ələ düşməz, motal da yoxdur.*

*Allaha bizmişik naşükür bəndə,*
*Bir söz desəm, dəxi qoymazlar kəndə.*
*Xalq batıbdı noğla, şəkərə, qəndə,*
*Bizim evdə axta zoğal da yoxdur.*

*Bizim bu dünyada nə malımız var.*
*Nə də evdə sahib camalımız var.*
*Vaqif, öyünmə ki, kamalımız var,*
*Allah şükür ki, kamal da yoxdur.*

### Mirzə Ələkbər SABİR

#### BAYRAM TÖHFƏSİ

*Ey tökən mollaların kamına şərbət növruz!*
*Əğniyalarla quran məclisi-işrət, novruz!*
*Səndə hər kəs sevinir, bəs niyə ancaq füqəra*
*Çəkir övladını gördükdə xəcalət, novruz?!*

*

*Ey pulluların səfası novruz!*
*Tacirlərin aşinası, novruz!*
*Bir millətə eyd ikən, nədən bəs*
*Oldun füqəra əzası, novruz?!*